AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az
polisazerbaycan
2 mart 2023-cü il
cümə axşamı
1933-cü ildən çıxır
№ 9 (3623)



100 il

**Müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsində, respublikamızın suverenliyinə və torpaqlarımızın ərazi bütövlüyünə qarşı erməni silahlı qüvvələri tərəfindən təcavüzlərin dəf edilməsində, vətəndaş sülhünün bərqərar olunmasında, qanunun aliliyinin təmin edilməsində Azərbaycan daxili işlər orqanlarının və onun əsas tərkib hissəsi olan polisin xidmətləri danılmazdır.**

*Heydər Əliyev,*
*ümummilli lider*

## Rəsmi xronika

*Azərbaycan Prezidenti İlham Əliyev fevralın 27-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu və Rumıniya Parlamentinin Deputatlar Palatasının sədri İon-Marçel Çolakonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*

*Dövlətimizin başçısı fevralın 28-də Kuba Respublikasının vitse-prezidenti Salvador Antonio Valdes Mesanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Ölkəmizin rəhbəri martın 1-də Beynəlxalq Miqrasiya Təşkilatının Baş direktoru Antonio Vitorinonu qəbul edib.*

*Azərbaycan Prezidenti İlham Əliyev martın 1-də Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç ilə görüşüb.*

# AZƏRBAYCANIN QƏTİYYƏTLİ MÖVQEYİ ERMƏNİ YALANLARINI İFŞA EDİR



Vətən müharibəsindən sonra Azərbaycanın yaratdığı yeni reallıqlar regionun təhlükəsizliyinin yeganə təminatçısıdır. Ermənistan və onun havadarları nə qədər ciddi cəhdlə, müxtəlif manevrlərlə tərs mütənasib davranış sərgiləməklə bu reallıqları pozmağa, sabitliyin təmin olunmasına qarşı çıxmağa çalışsa da bir nəticəyə vara bilmirlər. Yekunda hər şey Azərbaycanın istədiyi kimi olacaq. Prezident İlham Əliyevin təbirincə desək, çünki biz haqqın, ədalətin tərəfdarıyıq.

Torpaqlarımızın azad edilməsindən ötən müddət ərzində Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı bir neçə platformada müzakirələr aparılıb. Moskvada və Brüsseldə aparılan danışıqlarda Azərbaycan daim sülhə tərəfdar olduğunu göstərib, münasibətlərin normallaşdırılması istiqamətində konstruktiv təkliflər ortaya qoyub. Lakin istər Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin, istərsə də Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyilə aparılan müzakirələrdə müəyyən razılaşmalar əldə olunsa da Ermənistan imzaladığı bəyanatları, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırır, yersiz siyasi manevrlər etməklə vaxt udmağa, beynəlxalq münasibətlər zəminində düşdüyü çətin vəziyyətdən çıxmağa çalışır.

Bütün bunlara rəğmən proseslərin indiki mərhələsində, yeni istər münasibətlərin normallaşdırılmasında, istərsə də Qarabağda yaşayan ermənilərlə bağlı məsələlərdə Azərbaycan öz qətiyyətli mövqeyini nümayiş etdirir. “Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərlə bağlı məsələ Azərbaycanın daxili işidir. Bu mövzunu Bakı heç bir tərəflə, o cümlədən Ermənistanla müzakirə etmir. Bu çərçivədə Azərbaycan Qarabağ mövzusunu da artıq beynəlxalq müzakirələrdən çıxarır və bu, hər hansı bir formada respublikamızla Ermənistan arasında imzalanacaq sazişə daxil edilməyəcək.” Prezident İlham Əliyevin Münhendə “Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması” plenar iclasından sonra yerli televiziya kanallarına müsahibəsi zamanı səsləndirdiyi bu fikirlər deyilənləri təsdiqləyir.

Yeni reallıqların hər bir mərhələsində öz yolu ilə inamla addımlayan, mövqeyini daha da möhkəmləndirən Azərbaycan artıq erməni yalanlarını beynəlxalq miqyasda ifşa etməkdədir. Məsələn, Beynəlxalq Ədalət Məhkəməsinin son qərarına əsasən, Laçın yolu ilə bağlı Ermənistanın vəsatəti və aksiyanın Azərbaycan hökuməti tərəfindən təşkil olunması ilə bağlı fərziyyə ləğv edilib. Ermənistanın iddiası ondan ibarət idi ki, bu aksiya saxtadır və iştirakçılar guya Azərbaycan hökuməti tərəfindən öyrədilmiş şəxslərdir. Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən bu iddianın rədd edilməsilə rəzil duruma düşən Ermənistan indi Azərbaycanın Enerji Xartiyası Müqaviləsinə uyğun olaraq başlatdığı dövlətlərarası arbitraj prosesi qarşısında da aciz qalıb. Belə ki, Azərbaycan tərəfi Ermənistana təqdim edilmiş arbitraj bildirişində 30 ilə yaxın qanunsuz işğalı dövründə Azərbaycanın enerji resursları üzərində suveren hüquqlarını pozduğuna görə bu ölkədən təzminat və maliyyə kompensasiyası tələb edib.

Müxtəlif beynəlxalq platformalarda baş verən son proseslər onu göstərir ki, Azərbaycan Ermənistanı öhdəliklərinə əməl etməyə, yeni reallıqların şərt və tələblərini yerinə yetirməyə məcbur etməklə yanaşı, erməni yalanlarının beynəlxalq məhkəmələrdə də tam ifşasına nail olur.

# VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇILARI POLİS ORQANLARINDA XİDMƏTƏ QƏBUL OLUNUB





Fevralın 28-də daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 366 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 55 nəfəri Vətən müharibəsinin iştirakçısı olub.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edərək seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.




***Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il mart ayının 16-da Şəmkir Rayon Polis Şöbəsinin inzibati binasında Gədəbəy, Daşkəsən, Tovuz, Ağstafa, Qazax və Şəmkir şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.***

***Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 15.03.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.***

***Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.***

# “Heydər Əliyev İli” çərçivəsində silsilə tədbirlər keçirilir

## Akademiyanın rəisi mühazirə oxuyub

**Polis Akademiyasında “Heydər Əliyev İli” çərçivəsində keçirilən tədbirdə ümumilli liderimizin, Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin, eləcə də xidməti tapşırıqları yerinə yetirərkən həlak olan polis əməkdaşlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.**




Sonra Polis Akademiyasının rəisi, polis general-mayoru Canpolad Daanov tərəfindən Akademiyanın şəxsi heyəti və kursantları üçün ulu öndər Heydər Əliyevin zəngin irsinin daha dərindən və hərtərəfli öyrənilməsinə dair mühazirə oxunub.

Ümummilli liderimiz Heydər Əliyevin “Polis xalqımıza, Müstəqil Azərbaycan Dövlətinə, onun hər bir vətəndaşına xidmət edir” sözləri ilə mühazirəyə başlayan Akademiyanın rəisi daxili işlər orqanlarının inkişafının daim H.Əliyevin diqqət mərkəzində olduğunu bildirib. O, ulu öndərin 1994-cü il avqustun 9-da imzaladığı “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında” fərmanının mütəşəkkil cinayətkarlıqla mübarizənin təşkilati-hüquqi bazasının inkişafına və bu sahədəki uğurlara təkan verdiyini vurğulayıb.

Sonda C.Daanov Heydər Əliyev ideyalarına ən çətin məqamlarda da sadiq olan Azərbaycan Polisinin bu gün möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ağır, məsuliyyətli və həm də şərəfli vəzifələrin öhdəsindən bacarıqla gəldiyini, dövlət başçısının onlara göstərdiyi qayğı və etimadı layiqli xidmətləri ilə doğrultduğunu söyləyib.






## Əməkdaşlarımız ulu öndəri daim ehtiramla yad edirlər

**“Azərbaycan daxili işlər orqanlarının milli təməllər üzərində formalaşmasında və inkişafında ümummilli lider Heydər Əliyevin rolu” mövzusunda növbəti tədbir DİN-in Şəxsi Heyətlə İş İdarəsinin təşkilatçılığı ilə keçirilib.**

Müxtəlif xidmət əməkdaşlarının, DİN yanında İctimai Şura üzvlərinin, QHT təmsilçilərinin iştirak etdiyi tədbir ümumilli lider Heydər Əliyevin, şəhidlərimizin və xidməti tapşırıqları yerinə yetirərkən həlak olan həmkarlarımızın xatirəsinin yad edilməsi ilə başlayıb.

Daha sonra Şəxsi Heyətlə İş İdarəsinin rəisi, polis polkovniki Elçin Məmmədli qeyd edib ki, dünyada cərəyan edən proseslərə müdrikliklə yanaşan ümummilli liderimiz hakimiyyət illərində ölkəmizin nüfuzunu artırmış, həyata keçirdiyi məqsədyönlü islahatlarla Azərbaycanın gələcək inkişafının təməlini qoymuşdur. Daxili işlər orqanlarının inkişafı da həmin dövrlərə təsadüf edir və bu, hər zaman ümummilli lider Heydər Əliyevin diqqət mərkəzində olub. Respublikaya rəhbərlik etdiyi bütün dönəmlərdə daxili işlər orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətin peşəkarlığının artırılmasına öz töhfəsini vermiş ulu öndərin bu istiqamətdəki əvəzsiz xidmətlərini əməkdaşlarımız daim ehtiramla yad edirlər.

Çıxış edən İctimai Şura üzvləri və QHT təmsilçiləri də müstəqilliyimizin qorunub saxlanılmasının, ölkə daxilində sabitliyin bərqərar olunmasının məhz Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıblar.

# Ehtiramla anırıq




Fevralın 25-də DİN Şəxsi Heyətlə İş İdarəsində Xocalı faciəsi zamanı şəhid olmuş polis əməkdaşlarının ailə üzvlərinin iştirakı ilə anım mərasimi keçirilib. Tədbir iştirakçıları əvvəlcə qəhrəmancasına həlak olmuş polis əməkdaşlarının, soyqırıma məruz qalmış xocalıların, eləcə də ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş həmvətənlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. İdarə rəisi, polis polkovniki Elçin Məmmədli tədbiri giriş sözü ilə açaraq xalqımızın son iki əsrdə erməni millətçiləri tərəfindən dəfələrlə soyqırıma məruz qaldığını, azərbaycanlıların növbəti belə facie ilə 31 il əvvəl Xocalıda üzləşdiyini bildirib.

Polis polkovniki E.Məmmədli ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra bu məsələyə prinsipial şəkildə yanaşıldığını, məhz onun qətiyyəti sayəsində soydaşlarımıza qarşı qəddarcasına törədilmiş dəhşətli qətliama obyektiv hüquqi-siyasi qiymət verildiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, ölkə Prezidenti cənab İlham Əliyevin başımıza gətirilənlərin dünyanın diqqətinə çatdırılması istiqamətindəki fəaliyyəti öz bəhrəsini verib. Bu gün xarici ölkələrdəki diasporumuzla birgə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılmış "Xocalıya ədalət!" kampaniyası çərçivəsində mütəmadi şəkildə həyata keçirilən tədbirlər, geniş təbliğat əsl həqiqətlərin üzə çıxmasında mühüm rol oynayır. Məhz görülən işlərin nəticəsində özlərini beynəlxalq ictimaiyyətə məzlum, türklər tərəfindən guya soyqırıma məruz qalmış əzabkeş xalq kimi göstərməyə çalışan erməni millətçilərinin, lobbisinin və havadarlarının səyləri puç olub, yalan, böhtan və saxtakarlıq üzərində qurulmuş təbliğatları iflasa uğrayıb.

Tədbirdə 44 günlük Vətən savaşında düşməni məğlub etməklə təkcə xocalıların deyil, bütün şəhidlərimizin qisasının alındığı da xüsusi vurğulanıb.

Sonra polis polkovniki E.Məmmədli daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun adından qəhrəman şəhərin müdafiəsində şəhid olmuş polis əməkdaşlarının ailə üzvlərinə bir daha başsağlığı verib, problemləri, qayğıları ilə maraqlanıb və onlara maddi yardım təqdim edib. Göstərilən diqqət və qayğıya görə şəhid ailələri ölkə və DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

*“Polis”*

# Məharətini göstər, dərəcəni al

**Bu il də daxili işlər orqanları əməkdaşlarına məharət dərəcələrinin verilməsi üçün Əlahiddə Çevik Polis Alayında imtahanlara start verilib.**

Qeyd edək ki, əməkdaşların qarşıya qoyulmuş vəzifələri yerinə yetirmələri ilə bağlı hazırlıqlar. Peşəkarlıq səviyyəsinə görə müəyyən olunan “ikinci”, “birinci” və “usta” məharət dərəcəsi əməkdaşların daim öz üzərlərində işləmələrinə, bilik və bacarıqlarını artırmalarına stimul yaradır, həm də digərlərindən fərqləndirir.



...zırlıqları ilboyu davamlı olaraq yoxlanılır. Belə ki, hər ilin yekununda onların xidməti, döyüş və fiziki hazırlıq səviyyələri qiymətləndirilir. Yaxşı və əla qiymət alanlar məharət dərəcəsi imtahanına buraxılır.

Keçirilən imtahanlarda ilk olaraq əməkdaşların xidməti hazırlığı test üsulu ilə yoxlanılır. Tərtib olunan 40 sualdan 20-si hər xidmət sahəsinin özünə aid olsa da, qalan suallar isə ümumi biliklərin öyrənilməsinə yönəlir. Əməkdaşların nəticələri kompüterdə avtomatik olaraq qiymətləndirilir ki, bununla da imtahanın tam şəffaf, obyektiv keçirilməsi təmin olunur.

Test imtahanından uğur qazananların fiziki göstəriciləri də tələblərə cavab verməlidir. Turnikdə dartınmaqla, 100 və 1000 metr məsafəyə qaçmaqla normativləri yerinə yetirənlər əlbəyaxa döyüş üzrə imtahandan da keçməklə daha hazırlıqlı olmalarını nümayiş etdirmək imkanı qazanırlar.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Birgə tədbirlər ekologiyanı qorumağa yönəlib

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birgə sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə tədbirləri davam etdirir.

Yanvar-fevral ayları ərzində Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu ərazisində keçirilən növbəti belə tədbirlər zamanı Qaradağ rayonu ərazisində “Kamaz” markalı iki yük avtomobilindən bərk tullantıların boşaldılması və qalaqlanması, Suraxanı rayonu Zığ şossesi yaxınlığında, Abşeron rayonunun Hökməli və Qobu qəsəbələri ərazilərində, Sumqayıt şəhərində fəaliyyət göstərən istehsalat obyektində istehsalat, məişət və digər qarışıq tullantıların qalaqlanması, Səbail rayonunun Yubiley küçəsində 2 ağacın məhv edilməsi, Sumqayıt şəhəri və Abşeron rayonu Ceyranbatan qəsəbəsi ərazilərində isə heyvandarlıq təsərrüfatlarının fəaliyyəti zamanı yaranan çirkab sularının təmizlənmədən Samur-Abşeron magistral kanalına axıdılması faktları aşkar olunub.

İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsinin tələblərini pozduqlarına görə yük avtomobillərinin sürücüləri E.Mamedov və S.Balacayev, Zığ qəsəbəsi inzibati ərazi dairəsi üzrə nümayəndə Q.Səfərzadə, Hökməli bələdiyyəsinin sədri R.Orucov, Qobu bələdiyyəsinin sədri A.Nəcəfov və bir özəl şirkət barəsində, 253.2-ci (meşə fonduna daxil olmayan ağac və ya kol əkililərinin qanunsuz kəsilməsi və ya məhv edilməsi) maddəsinin tələblərini pozduğuna görə vətəndaş E.Həbibli barəsində, 264.0.1-ci (su obyektlərinin mühafizəsi qaydalarının pozulması) maddəsinin tələblərini pozduqlarına görə isə vətəndaşlar - T.Zamanov, F.Səfərov, N.Rüstəmov, Y.Vəliyev, Ş.Ələkbərov, Ç.Təhməzov və A.Bəylərov barəsində inzibati protokollar tərtib edilib.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

# Qəhrəman bölüyün xilaskar taqım komandiri

**Əlahiddə Çevik Polis Alayının 6-cı Patrul Bölüyünün əməkdaşı** Yasamal rayonundakı binaların birindən özünü atmaq istəyən şəxsi xilas edib. "Xilas edib" yazırıq ona görə ki, intiharın baş tutması riski həddindən artıq yüksək olub və məhz həmkarımızın peşəkarlığı ölüm hadisəsinin qarşısını alıb.

Təfərrüata bir azdan, Patrul Bölüyü haqqında bir neçə kəlmə yazandan sonra qayıdarıq.

İnternet resurslarında polis əməkdaşlarının insan həyatını xilas etdiyini əks etdirən məşhur görüntülər var – sürücü qadının sükan arxasında epilepsiyası tutur, polislər onu dərhal maşından çıxarıb xəstəxanaya çatdırır. Başqa bir kadrda isə ürək tutmasından idarəetməni itirən sürücünün hərəkətdə olan avtomobilinə qaçaraq özünü çatdıran həmkarımız görünür...



Təsadüfən vətəndaşlar tərəfindən lentə alınan o kadrlardakı polislər 6-cı Patrul Bölüyünün qəhrəmanlarıdır. Bəlkə elə təkcə bunlara görə bütövlükdə bu bölük haqqında danışarkən "qəhrəman Patrul Bölüyü" ifadəsini işlətməyimiz doğru olar.

Komandir, polis polkovnik-leytenantı Azər Seyidov deyir ki, onların xidmətlərinin bu qədər "macəralı" keçməsi həmişə hadisələri bir addım qabaqlamaq, necə deyərlər, vətəndaşa təhlükədən daha yaxın olmaq istəyindən qaynaqlanır. Son intihara cəhd hadisəsi şəxsi heyətin hər zaman həm fiziki, həm döyüş-peşə hazırlığı ilə bağlı keçirilən dərsləri, təlimatları doğru mənimsəyib, ekstremal situasiyalarda uğurla tətbiq etməyi bacardığını bir daha təsdiq edib. Cinayətkarlıqla mübarizə və ictmai asayişin qorunmasında əldə edilən nəticələr də qənaətbəxşdir. Belə ki, Bölüyün əməkdaşları tərəfindən ötən il ərzində 1523 nəfər inzibati hüquqpozmalar və cinayət törətdiklərinə görə polis orqanlarına təhvil verilib.

Qayıdaq mətləbə.

Hadisə fevralın 22-də saat 17:00 radələrində baş verib. Ailədaxili problemlər səbəbindən 9 mərtəbəli binalardan birinin damına çıxıb özünü atmaq istəyən şəxs ətrafdakıların diqqətini çəkib. Məlumat alan kimi özünü hadisə yerinə çatdıran **Əlahiddə Çevik Polis Alayının 6-cı Patrul Bölüyünün taqım komandiri, polis leytenantı Hüseyn Qurbanlı** onu fikrindən daşındıra bilib. İntihara cəhd edən şəxslə polis əməkdaşının söhbət etməsini ətrafdakı binaların sakinləri telefonla çəkiblər və çox güman, bu görüntülər də internetin "yaddaşında" polisin növbəti xilaskarlıq nümunəsi kimi uzun müddət qalacaq.

Buna qədər də özünə qəsd etmək istəyənlərlə qarşılaşdığını, onları da yola gətirə bildiyini deyən taqım komandirinin sözlərinə görə, məlumatı qəbul edən kimi dərhal polis naryadı ilə özlərini deyilən ünvana çatdırıblar. FHN-nın xilasedicilərі gəlib ərazidə işləyə bilsinlər deyə Bölük komandirinin göstərişi ilə avtomobillərin ərazidə hərəkəti məhdudlaşdırılıb, vətəndaşlar oradan uzaqlaşdırılıb. İntihar etmək istəyən şəxsin kiməsə zəng edib danışandan sonra telefonu yerə atması ilə təhlükənin artdığını görən taqım komandiri vaxt itirmədən dama qalxıb. Deyir, o, dəmir konstruksiyanın düz kənarında dabanının üstündə durmuşdu, ayaq pəncələri boşluqdaydı artıq. Həmin an özünü atmaq istəməsə də, ani diqqətsizlikdən, müvazinətini itirməsindən yıxıla da bilərdi. Dəmir konstruksiya da nazik idi, FHN əməkdaşlarına məlumat vermişdik, ancaq onlar gələnə qədər dəmir qırıla bilərdi: "İcazə alıb ona yaxınlaşdım, hərəkətinin səbəbini soruşdum. Əvvəl danışmaq istəmədi, amma bildirdim ki, əməli düzgün deyil, özünü öldürməsi heç bir nəticə verməyəcək. Sonra ailə vəziyyəti ilə maraqlandım. Himayəsində azyaşlı uşaqlarının olduğunu öyrəndim və hiss elədim ki, ailəsinə bağlı adamdır, uşaqlarını sevir. Uşaqları barədə danışdım ona. Dedim ki, o öz canına qıysa çox sevdiyi azyaşlı övladları başsız qalacaq. Əlimi tut səni övladlarına aparım,- dedim".

Taqım komandiri onun psixoloji vəziyyətini doğru qiymətləndirmişdi və həyat üçün uzatdığı əli məhz buna görə boş qalmamışdı...

*R.Mehtiyev*

# Mübarizənin bir adı da maarifləndirməkdir

## *Gələcəyin əsgərini, həkimini, müəllimini qorumaq şərəf borcudur*



Səbail Rayon Polis İdarəsinin təşkilatçılığı ilə Landau məktəbində "Narkotik əsrin bəlasıdır, zərərli vərdişlərə yox deyək!" mövzusunda maarifləndirici görüş keçirilib. Tədbirdə **RPİ-nin rəisi, polis polkovniki Hikmət Qasımov, rayon İcra Hakimiyyəti başçısının müavini Eldar Ağayev, DİN Mətbuat Xidmətinin rəis müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov, məktəbin icraçı direktoru Timur Leznik, eləcə də rayonun aidiyyəti dövlət qurumlarının nümayəndələri, məktəbin pedaqoji heyəti və yuxarı sinif şagirdləri** iştirak ediblər.



Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan məktəbin icraçı direktoru T.Leznik polisin narkomaniyaya qarşı mübarizədə təbliğat işinə böyük önəm verdiyinə diqqət çəkərək görülən işlərdə vətəndaşların da asayiş keşikçilərinə dəstək olmalarının, həmrəylik nümayiş etdirmələrinin vacibliyini vurğulayıb.

Görüşdə çıxış edən RPİ-nin rəisi, polis polkovniki H.Qasımov narkomaniyanın törətdiyi fəsadlardan danışaraq bildirib ki, narkomaniya da narkotiklərin qanunsuz dövriyyəsinin coğrafiyası kimi sərhəd tanımır. Bu dəhşətli xəstəlik hamı üçün eyni dərəcədə təhlükəlidir; o cinayətkarlığı, zorakılığı və korrupsiyanı yaradır, sosial-iqtisadi inkişafı səngidir, ailə və icmaları dağıdır. Ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin aşkar edilməsi istiqamətində aparılan qətiyyətli mübarizə tədbirlərinin nəticələri barədə məlumat verən İdarə rəisi narkotacirlərə və narkotik istifadəçilərinə qarşı hüquq mühafizə orqanlarının barışmaz mövqe sərgilədiyini də dinləyicilərin nəzərinə çatdırıb.

Müasir dövrdə bütövlükdə bəşəriyyət üçün böyük bəlaya çevrilən narkomaniya ilə mübarizənin vacibliyindən, sağlam gəncliyin və etibarlı gələcəyin qurulması baxımından belə maarifləndirici görüşlərin davamlı təşkilinin zəruriliyindən danışan RİH başçısının müavini E.Ağayev "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair Dövlət Proqramı"nın uğurla icra olunduğunu bildirib.

Tədbirdə çıxış edən polis polkovnik-leytenantı H.Təmirov qeyd edib ki, narkomaniya cəmiyyətin ciddi bəlasına çevrilən, mənəvi və əxlaqi dəyərlərə böyük zərbə vuran ən ağrılı problemlərdəndir. O, zərərli vərdişlərdən uzaq olmaq, gələcək karyeralarında uğur qazanmaq üçün şagirdlərin diqqətlərini elmə, təhsilə, idmana, bir sözlə, cəmiyyətə faydalı olacaq işlərə yönəltmələrinin əhəmiyyətindən danışıb, tövsiyələrini çatdırıb.

Sonra çıxış edənlər son illər respublikamızda narkotik vasitələr və onların prekursorlarına qarşı mübarizə tədbirlərinin gücləndiyini, bu sahəyə cavabdeh olan dövlət orqanları ilə yanaşı ictimai təşkilatların da fəallığının artdığını, gənclərin maarifləndirilməsi məqsədilə müxtəlif tədbirlərin, o cümlədən "dəyirmi masa"lar, diskussiyalar, inşa yazı və rəsm müsabiqələrinin təşkil edildiyini, gənclərin asudə vaxtlarının düzgün və səmərəli keçirilməsinə ciddi diqqət yetirildiyini bildiriblər.

Sonda narkomaniyanın fəsadlarından, bu bəlaya düçar olan şəxslərin acınacaqlı həyatından bəhs edən videoçarx nümayiş olunub.

# Günün vacib mövzusu

## *Uşaqları qorumaq üçün öyrədirik*



Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin və Azərbaycan Milli Avtomobil Klubunun təşkilatçılığı ilə "Məktəblinin dostu" layihəsi çərçivəsində məktəblinin dostlarına "Yol hərəkəti qaydalarını uşaqlara necə öyrətməli?" mövzusunda təlim keçirilib.

Tədbirdə Azərbaycan Milli Avtomobil Klubunun nümayəndəsi, Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin və "Məktəblinin dostu" layihəsinin əməkdaşları da iştirak edib.

Təlimin keçirilməsinin əsas məqsədi "məktəblinin dostları"nın yol hərəkəti qaydaları və təhlükəsizliyi ilə bağlı biliklərini artırmaq, onların sözügedən mövzuda şagirdlərlə təşkil etdikləri praktiki məşğələlərə daha peşəkar yanaşmanı təmin etməkdir.



**BŞDYPİ-nin Hərəkətin təşkilinin təbliği və ictimai qurumlarla əlaqə bölməsinin inspektoru, polis baş leytenantı Pərvanə Muradova və operatoru, polis serjantı Elnur Mahmudov** "Yol hərəkətinin təhlükəsizliyi", "Yol hərəkəti qaydalarına riayət edək" mövzusunda çıxış ediblər.

Qeyd olunub ki, yol-nəqliyyat hadisələrinin qarşısının alınması üzrə məktəblilərə erkən yaşlardan yol nişanlarının və hərəkət qaydalarının öyrədilməsi günün vacib mövzularındandır. Bu istiqamətdə təbliğatın aparılmasına isə hər zaman ehtiyac var.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Regionlarda gənclər xidmətə həvəsləndirilir



Azərbaycan Prezidentinin müvafiq sərəncamına uyğun olaraq "2015-2025-ci illərdə Azərbaycan gənclərinin inkişafı strategiyası" əsasında həyata keçirilən həvəsləndirici təbliğat və təşviqat xarakterli tədbirlərin təşkili Daxili İşlər Nazirliyi tərəfindən də uğurla davam etdirilir. Belə ki, DİN sistemində təhsilə və xidmətə təşviqlə bağlı Masallı, Biləsuvar rayonlarında və Şirvan şəhərində DİN Şəxsi Heyətlə İş İdarəsinin təmsilçilər ilə ərazi polis orqanlarının əməkdaşları, gənclərlə iş sahəsinin mütəxəssisləri, daxili işlər orqanlarının, eləcə də Daxili Qoşunların veteranları, həmçinin digər hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələri yuxarı sinif şagirdləri, eyni zamanda hərbi xidməti başa vurmuş şəxslərlə görüşüblər.



Görüşlərdə polisin tarixi, daxili işlər orqanlarında xidmətin şərəfi, məsuliyyəti, həmçinin xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında təhsilin şərtləri barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, qocaman təhsil müəssisəsi bu gün ölkəmizdə ictimai-siyasi sabitliyin və asayişin daha möhkəm şəkildə qorunmasına mühüm töhfələr verir, daxili işlər orqanlarının yüksək ixtisaslı hüquqşünaslarla, habelə fiziki cəhətdən sağlam polis zabitləri ilə təmin olunmasında mühüm rol oynayır. Tədbirdə Akademiyaya kursant qəbulu qaydaları, o cümlədən gənclərin hərtərəfli inkişafı üçün yaradılan müasir şərait, asudə vaxtın səmərəli təşkili məqsədilə görülən işlərlə bağlı suallar da cavablandırılıb.

Tədbir iştirakçıları dövlət başçısının müvafiq Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"ndan irəli gələn məsələlərdən də söhbət açıblar.

Sonda polis veteranları cinayətkarlıqla mübarizədə qazanılmış zəngin təcrübənin gənc polis əməkdaşlar tərəfindən uğurla davam etdirilməsindən danışıblar.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Baş Dövlət Yol Polisi İdarəsi təltif edilib




Beynəlxalq əməkdaşlıq çərçivəsində ölkəmizdə həyata keçirilən E-Nəzarət Platformasının əsas məqsədi əhalinin üzləşdiyi problemləri çevik şəkildə aidiyyəti qurumlara çatdırmaq və onların həllinə nail olmaqdır.



Çoxsaylı dövlət qurumlarının, QHT-lərin və mətbuat nümayəndələrinin iştirakı ilə keçirilən "Dəyirmi masa"da Platformaya daxil olmuş müraciətlər, onların icra vəziyyəti müzakirə edilib.

Tədbirdə iştirak edən DİN BDYPİ-nin əməkdaşı Mübariz Ağayev təmsil etdiyi qurum tərəfindən vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə göstərilən dəstək, polisə əlçatanlığının təmin edilməsi istiqamətində görülən işlər, bu sahədə QHT və media subyektləri ilə birgə əldə olunan nailiyyətlər haqqında iştirakçılara məlumat verib.

Sonda vətəndaşların müraciətlərinə baxılması və qaldırılan məsələlərin həllində fəallıq göstərdiklərinə görə bir sıra qurumlar, o cümlədən Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi təltif edilib.

## Mükafatlı sual rubrikası



"Mən inamla deyə bilərəm ki, heç kəsi düşünülmüş şəkildə incitməmişəm, ancaq sizi buna inandırmağı bacarmıram, çünki bizim söhbət etməyimiz üçün çox az bir vaxt ayrılıb. Mənə elə gəlir ki, bizdə də başqa yerlərdə olduğu kimi ölüm işi ilə bağlı məhkəmə prosesi bir gün deyil, bir neçə gün davam eləsəydi, sizi özümün günahsızlığıma inandıra bilərdim; indi mənə verilən qısa vaxt ərzində belə bir böyük yalanı təkzib eləmək çox çətindir".

*Sözlər kimə məxsusdur?*

**Vatsap: +99455-875-16-39**

## Bu dəfə qalibimiz tələbədir



O, türk tarixini, mədəniyyətini tədqiq edən tanınmış alim, 60-dan çox sənədli filmin və 20-dən çox kitabın müəllifidir. Mütəmadi olaraq Avropa ölkələrində erməni probleminə həsr edilmiş elmi praktiki konfranslarda, seminarlarda iştirak etmiş, 2005-ci ildə "Qondarma erməni soyqırımının 90 illiyi" münasibətilə Avstriyada kitab dərc etdirmişdir. Bu şəxsin kimliyi ilə bağlı sualımızı Rəşad Ənvər oğlu Həsənov hamıdan tez cavablandıraraq vatsap nömrəmizə ünvanlayıb. Cavab türkoloq Erix Fayql idi.

Yeri gəlmişkən, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin 3-cü kurs tələbəsi olan R.Həsənov ötən həftələrin birində rubrikamızın qalibi, Binəqədi Rayon Polis İdarəsinin əməliyyat müvəkkili, polis leytenantı Muxtar Həsənovun qardaşıdır. Universitetə 610 balla qəbul olan tələbə oxucumuz həm də əlaçıdır.

# Komandamız birinci oldu




Fevralın 25-i və 26-da Hövsan İdman Olimpiya Kompleksində "Heydər Əliyev Kuboku" uğrunda kikboksinq üzrə turnir keçirilib.

Ulu öndərin, eləcə də şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən və Dövlət Himnimiz səsləndirildikdən sonra yarışa start verilib.

Otuz səkkiz klubu təmsil edən 250-dən çox idmançının qatıldığı turnirdə DİN İdman Cəmiyyətinin 27 yetirməsi də gücünü sınayıb. Onlar 4-ü qızıl, 3-ü gümüş və 7-si bürünc olmaqla, ümumilikdə 14 medal əldə ediblər. Komandamız qazanılan medalların sayına görə komanda kubokuna layiq görülüb.

Qeyd edək ki, DİN İdman Cəmiyyətinin yetirmələrini turnirə kikboks üzrə yeniyetmələr və gənclər üzrə millimizin baş məşqçisi, DİN Mühafizə İdarəsinin əməkdaşı, polis baş serjantı Hikmət Hacıyev hazırlayıb.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Polis cüdoçular fərqləndi




Gənclər və İdman Nazirliyinin və Azərbaycan Cüdo Federasiyasının birgə təşkilatçılığı ilə Hövsan qəsəbəsində yerləşən İdman Sağlamlıq Mərkəzində veteran cüdoçular arasında Azərbaycan çempionatı keçirilib.

3 yaş kateqoriyası üzrə 19 çəki dərəcəsində 88 idmançı medallar uğrunda mübarizəyə qatılıb.

Yarışın əsas məqsədi usta-veteran cüdoçuların gənc nəslə örnək olaraq sağlam həyat tərzinin təbliği və təcrübəli idmançıların müvafiq yaş qrupu üzrə Avropa və dünya çempionatlarında iştirakı üçün seçim etməkdir.

Çempionata qatılan həmkarlarımızdan Polis Akademiyasının Fiziki hazırlıq kafedrasının müəllimi, polis baş leytenantı Hikmət Alışov M1 yaş kateqoriyasında (100), DİN İdman Cəmiyyətinin Fiziki hazırlıq şöbəsinin baş inspektoru, polis mayoru Elşən İbişov M2 (90), Əlahiddə Çevik Polis Alayının manqa komandiri, polis baş serjantı Azər Fətullayev M2 (81), DİN Daxili Qoşunların İdman komandasının baş məşqçi müəllimi, mayor Emil Hüseynov M2 (100) kiloqram çəki dərəcələrində birinci olublar.

Əlahiddə Çevik Polis Alayının əməkdaşları, polis serjantı Rəsul Abbasov M2 (100) II, polis serjantı Araz Mehrəliyev isə M1 (100) kiloqramda III yerlə kifayətlənib.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# PULUNU ÖDƏDİ, ANCAQ MAŞINSIZ QALDI




Lənkəran şəhər sakini Samir Baxşıyev saytların birində təcili satışa çıxarılmış "Vaz 2107" markalı avtomobillə bağlı məlumat əldə etmək üçün elanda yerləşdirilmiş telefonla əlaqə saxlayıb almaq istədiyini bildirir. Qiymətində də razılığa gəlirlər və maşının sahibi Ə.Cavadov yaxın günlərdə avtomobili Lənkəran şəhərinə gətirəcəyinə söz verir. Bir-neçə gündən sonra Samir Əhmədlə əlaqə saxlayıb nə vaxt gələcəyini soruşur. Əhməd artıq yolda olduğunu və tezliklə görüşəcəklərini bildirir. Bir-neçə saatdan sonra Əhməd Samirə zəng vurub deyir ki, polis maşının ödənməyən cəriməsinə görə onu saxlayıb. Cəriməni ödəmək üçün Samirdən onun kartına pul göndərməsini xahiş edir. Cərimə ödəmə bəhanəsi ilə Samiri aldadaraq ümumilikdə 3100 manatını mənimsəyir.



Aldadıldığını başa düşən S.Baxşiyev Lənkəran Şəhər-Rayon Polis Şöbəsinə müraciət edir.

Məsələ ilə bağlı "Polis"in suallarını Lənkəran Şəhər-Rayon Polis Şöbəsinin müstəntiqi, polis mayoru Aqşin Axundov cavablandırıb: "Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində dələduzluqda şübhəli bilinən Bakı şəhər sakini Ə.Cavadov saxlanılıb. Həmin şəxs dindirilmə zamanı tamah məqsədilə törətdiyi əməli etiraf edib. Zərərçəkmişə dəymiş maddi ziyan ödətdirilib".

Yeri gəlmişkən, Samir Baxşiyev müraciətinə operativ baxılmasına və dəymiş ziyanın ödətdirilməsində göstərilən köməyə görə DİN rəhbərliyinə təşəkkür məktubu yazmağı da unutmayıb.

*R.Əliyeva*

# Silahsız özünümüdafiə və əlbəyaxa döyüş yarışları davam edir




DİN İdman Cəmiyyətinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silahsız özünümüdafiə və əlbəyaxa döyüş üzrə bölgələrarası yarışlar davam etdirilir.

Şəki Olimpiya İdman Kompleksində keçirilən ikimərhələli yarışda iştirak edən 85 idmançıdan 31-i növbəti tura vəsiqə əldə edib. Gərgin idman mübarizəsi şəraitində keçən turnirin 67, 73, 80, 88, 97 və +97 kiloqram çəki dərəcələrinin ən güclü üçlüyü müəyyən olunub.

Yarışı **İdman Cəmiyyətinin fiziki hazırlıq şöbəsinin inspektoru, polis baş leytenantı Xudayar Kərimov və təlimatçı Rəsul Məmmədov** idarə ediblər.



Daha bir bölgələrarası yarış Xaçmaz Olimpiya İdman Kompleksində keçirilib. Yarışda qüvvəsini sınayan 60 iddiaçıdan 44-ü birinci mərhələni adlayabilib. İkinci mərhələnin sonunda 6 çəki kateqoriyası üzrə qaliblərə münsiflər tərəfindən medal, diplom və qiymətli hədiyyələr təqdim olunub.

Qeyd edək ki, anoloji turnir Saatlı rayonunda da keçirilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Silah-sursat aşkar edilib

Bərdə regional qrupumuzdan bildirilib ki, Tərtər və Laçın Rayon Polis şöbələrinin əməkdaşları tərəfindən işğaldan azad edilmiş ərazilərdə keçirilən nəzarət profilaktik tədbirlər zamanı erməni hərbi birləşmələrinin tərk etdikləri mövqelərdən xeyli silah-sursat tapılıb. Tərtər rayonunun Talış kəndi ərazisində 1 ədəd tank əleyhinə idarə olunan raket sistemi, 17 müxtəlif təyinatlı mərmi, Laçın rayonunun Qarıkaha kəndində isə 3 əl qumbarası aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.



POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9855
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik